Tarix və onun problemləri, №4 2009

H.M.PAŞAYEV
*BDU-nun Slavyan ölkələri tarixi kafedrasının aspirantı*

# RUSİYANIN AQRAR QANUN VƏ SƏRANCAMLARININ ŞİMALİ AZƏRBAYCANDA TƏTBİQİ (XIX əsr və XX əsrin əvvəlləri)

Rusiyanın Şimali Azərbaycanda işğallara başlaması sosial-iqtisadi həyatın bütün sahələrində, xüsusən də torpaq sahibliyi, vergi və mükəlləfiyyətlərin ödənməsi və miqdarı ilə bağlı məsələlərdə çox ciddi dəyişikliklərə səbəb oldu. Bu, ilk növbədə divan, xan ailəsi, çarizmə qarşı mübarizə aparan hakim zümrənin digər nümayəndələrinin torpaqlarının və digər əmlakının müsadirəsi və xəzinənin ixtiyarına keçiirilməsində özünü aydın şəkildə göstərirdi.

Rusiya hakimiyyət nümayəndələri bu yeni müstəmləkə əsarətinə saldıqları diyarda əsas sərvət mənbələrini ələ keçirməklə yanaşı, özünə sosial dayaq yaratmaq məqsədilə yerli feodal zümrəsinin mülkiyyət hüququnu, digər hüquq və imtiyazlarını qaydaya salmaq istiqamətində də addamlar atırdı.

XIX əsrin başlanğıcında Azərbaycanda əkinə yararlı torpaq fondunun, eləcə də otlaqların əhəmiyyətli hissəsi hakim sülaləyə çevrilmiş xanların ixtiyarında idi. Məsələn, Qarabağ xanlığında bütün yaralı torpaq sahələrinin yarıdan çoxu İbrahimxəlil xanın mülkiyyəti hesab edilirdi. Tarixçi Mirzə Camalın yazdığına görə: «xanın (İbrahimxəlil xanın-H.P.) cüt və kotanı bütün Qarabağ əhlinin cüt və kotanı qədərdir; hətta onlardın iki cüt də artıqdır» (7, 145). Quba xanlığında isə əkinə yaralı torpağın ¾ hissəsi xan xəzinəsinin mülkiyyətində idi (20, 22). Şirvan xanlığında 198 kənddən 137-si və ya $^2/_3$ -hissəsi feodal torpaq sahibliyinin payına düşürdü. Şirvanda bilavasitə xan xəzinəsinə məxsus torpaqlarda 67 kənd və ya bütün kəndlərin 30,8 faizi yerləşirdi (1, 36, 37).

Xanlar ən iri torpaq sahibləri olmaqla bərabər, həm də suvarma şəbəkələrinin, meyvə bağlarının, toxmacarlıq və üzümlüklərin, su dəyirmanlarının, dükanların və digər daşınmaz əmklakın mülkiyyətçisi kimi də böyük həcmdə gəlir götürürdülər (16, 185, 208, 234). Məsələn, Şəkidə XVIII əsrin sonunda xanlıq etmiş Məhəmmədhəsən xanın 29 kənddə 222 tut bağı, 13 kənddə 519 tağarlıq taxıl əkini yer, 17 kənddə 235 tağarlıq çəltik əkini yeri, 28 yatağı (qışlaq yeri), 11 dəyirmanı, böyük üzüm və meyvə bağları, 264 dükanı var idi (5, 57; 15, I, 411-413, 441-444).

İşğal ərəfəsində yararlı torpaqların mühüm bir hissəsi də xanın qohumlarına, feodal zümrəsinin digər üzvlərinə məxsus idi. Məsələn, Qarabağ xanlığında mövcud olan 629 kənd və oymaqdan 130-u xanın qardaşlarının, bacılarının və digər qohumlarının mülkiyyəti hesab edilirdi. (13, 108, 111) Şəki xanlığında isə 163 kənddən 52-si xanın qohumlarının və digər nüfuzlu sultan, bəy və ağaların mülkiyyətində idi (1, 35).

Xanlıqlar dövründə yararlı torpaqların bir hissəsi də məscid, mədrəsə və digər dini idarələrin ixtiyarında idi. XIX əsrin başlanğıcında Şimali Azərbaycan xanlıqlarında 112 min desyatin yararlı torpaq sahəsi müxtəlif vəqflərin mülkiyyəti sayılırdı (6,138).

Rusiyanın Şimali Azərbaycanda fəal işğalçılıq siyasətinə qarşı, hakim zümrənin öz hüquq və imtiyazlarını qoruyub saxlamaq üçün qətiyyətlə mübarizə aparan hissəsi çarizm tərəfindən dərhal mülkiyyətdən məhrum edilir, özləri isə ya məhv edilir, ya da «xəyanətkar», «etibarsız» elan edilərək xaricə qaçmağa təhrik edilirdi. 1804-cü ildə Gəncə xanlığının, 1806-cı ildə Bakı xanlığının ləğvi ilə eyni zamanda Gəncə hakimi Cavad xanın, Bakı hakimi Hüseynqulu xanın və onlarla birlikdə rus ordusuna qarşı vuruşmuş bəylərin torpaqları müsadirə edildi və xəzinənin ixtiyarına keçirildi. 1806-cı ildə həmçinin Şəki və Çar-Balakəndə Rusiya əleyhinə üsyanlarla iştirak etmiş və sonra da təqiblərdən yaxa qur-

tarmaq üçün qonşu ölkələrə və hələ işğal edilməmiş xanlıqlara qaçmış hakim zümrə nümayəndələrinin, Quba hakimi Şeyxəli xanla birlikdə çarizmə qarşı əldə silah mübarizə aparan bəylərin torpaqlarının xəzinənin xeyrinə müşadirə edilməsinə başlandı. (1, 68).

Quba bəylərinin torpaqlarının müşadirə edilməsinin yeni mərhələsi 1810-cu il üsyanından sonra başlandı. Üsyanda iştirak etmiş bəylərin bir hissəsi ələ keçirildikdə Qafqazdakı rus qoşunlarının baş komandanı general Tormasovun əmrinə əsasən dustaq edilib Bakıya göndərildi. Bakı komendantı da əmlakları müşadirə edilmiş bu bəylərin bir hissəsinin Sibirə, digər hissəsinin də imperiyanın daxili rayonlarına sürgünə göndərilməsinə qərar verdi. (11, IV, 672).

1813-cü ildə İranla müharibə başa çatdıqdan sonra Rusiya hakim dairələri Azərbaycanın feodal zümrəsinə qarşı o zamana qədər yetirdiyi sərt siyasəti qismən yumşaltdı. Çar I Aleksandr 1814-cü il avqustun 30-da xüsusi manifest imzalayaraq ümumi əfv elan etdi: öz yurdunu tərk etmiş bütün şəxslərin iki il ərzinə geri dönmələrinə və əmlaklarının özlərinə qaytarılmasına icazə verdi (18, XXXII, 909-910). Bu manifestə uyğun olaraq həbsdə, sürgündə olan bəylər və ağalar da əfv edildi, onların silki imtiyazlarının, torpaq mülklərinin geri qaytarılmasına başlandı.

1815-ci ildə keçmiş Qarabağ hakimi İbrahimxəlil xanın oğlu Cəfərqulu ağa İrandan geri döndükdə, onun bütün əmlakının özünə qaytarılmasına sərəncam verildi (11,V, 583-584). 1817-ci ildə isə qubalı Şeyxəli xanın tərəfdarı kimi dağlara çəkilib mübarizə aparmış 16 nəfər bəy könüllü surətdə silahı yerə qoyub geri döndükdə, hakimiyyət nümayəndələri onların xəzinəyə keçirilmiş və ya çarizmə sədaqətli xidmətinə görə digər bəylərə verilmiş kəndlərini özlərinə qaytardı. (1,70).

Qeyd etmək lazımdır ki, Qafqazda rus idarəçiliyini həyata keçirən hakimiyyət nümayəndələri bir çox hallarda bəy və ağaların öz yurdlarına geri dönməsinə və mülkiyyət hüquqlarının bərpasına dair müraciətlərinə baxılmasını qəsdən ləngidir, çox zaman da onların keçmiş torpaq mülklərini tam həcmdə geri qaytarmırdı. Bu hal Qazax, Şəmşəddil və Borçalı bölgələrinin ağalarına və Quba əyalətinin bəylərinə münasibətdə xüsusilə geniş tətbiq edilirdi. (11, III, 351, 406; IV, 227, 669; V-2, 223).

Çar hökuməti yerli feodalların çoxunun torpaq sahibliyi hüququnu inkar edir, onların öz kəndləri üzərində yalnız müvəqqəti idarəçəlik hüququ olduğunu iddia edirdi. Həmçinin kəndlilərdən toplanan bütün vergiləri özünə götürməyə çalışan bəy və ağaların bu məhdud hüquqları da ləğv edilir, özləri isə həbsxanalara salınırdı.

Hakimiyyət nümayəndələri israrla bildirirdilər ki, tiyuldar bəylər və ağalar torpaq sahibkarı deyil, xeyirlərinə kəndlilər tərəfindən mükəlləfiyyətlər icra edilən torpaq «idarəçiləridir» (2, IV, 81). Çarizm bu iddianı əsas götürərək, Rusiyaya xəyanət etməkdə günahlandırdığı feodalların torpaqlarını müsadirə etməyə, hakimiyyətə sədaqətlə xidmət edənlərə isə, əksinə «idarə etmək» üçün kəndlər verməyə başladı. Bu yolla çar hakimiyyəti özünü Azərbaycanın işğal edilmiş ərazilərində yararlı torpağın əsas hissəsinin ali mülkiyyətçisi elan etdi.

General A.P.Yermolovun Qafqazdakı rus qoşunlarının baş komandanı olduğu dövrdə (1816-1827-ci illər) Azərbaycan feodallarını öz mülklərindən məhrum edilməsi daha geniş miqyas aldı. 1818-ci ilin aprel ayında çar hakimiyyəti adından «Ağalar haqqında yeni əsasnamə» elan edildi. Bu sənədə əsasən Qazax və Şəmşəddil sultanlıqları birbaşa rus idarəçiliyinə keçirildi, sultanlıqların başçıları Mustafa ağa və Nəsib sultan isə həbs edilərək öncə Tiflisə, oradan da Rusiyaya sürgün edildilər (10, 112-113, 115).

Yüksək rütbəli rus məmurları 1819-cu ildə Şəki hakimi İsmayıl xanı zəhərləyib öldürməyə nail olduqdan sonra, müxtəlif fitnakarlıq və digər alçaq üsullara əl atmaqla 1820-ci ildə Şirvandan Mustafa xanın, 1827-ci ildə isə Qarabağdan Mehdiqulu xanın öz torpaqlarını tərk edib İrana keçmələrinə nail oldular. Bu hadisələrdən dərhal sonra əyalə-

tə çevrilən hər üç xanlıqda hərbi-inzibati idarəçilik tətbiq edildi. Yeni əyalətlərdə çarizmin ilk ənəmli işi xanlara və onlara qoşulub İrana keçmiş bəylərə məxsus bütün əmlakın siyahıya alınıb xəzinənin ixtiyarına keçirilməsi oldu (11, VI-1, 738, 760-761, 763, 812-813 və s.)

Çar hakimiyyəti nümayəndələri həmçinin öz yerlərində qalan feodal zümrəsi üzvlərinin kənd və torpaq üzərində hüquqlarını müəyyənləşdirmək üçün addımlar atmağa başladı. 1820-1821-ci illərdə Şəki və Şirvan əyalətlərində, 1824-cü ildə Qarabağ əyalətində bəylərin və digər feodalların kənd və torpaqlar üzərində «idarəçilik, digər daşınan və daşınmaz əmlakları üzərində mülkiyyət hüquqlarını təsdiq edən xan fərmanları və təliqələri toplandı və rus dilinə tərcümə edilərək Tiflisə – general Yermolovun dəftərxanasına göndərildi. O da xan fərmanlarının məzmununu qəsdən təhrif edərək, 1824-cü il iyulun 7-də imzaladığı sərəncamda qəti şəkildə bildirdi ki, «... xanlar tərəfindən hər yerdə bağışlanan kəndlər üzərində sahiblik hüququ deyil, yalnız idarə hüququ tanınır» (1,84).

1827-ci ildə işğal edilmiş İrəvan və Naxçıvan xanlıqlarının yerində təşkil olunan «Erməni vilayəti»ndə yerli azərbaycanlı feodalların torpaq mülkiyyəti ilə bağlı çarizmin tədbirləri də yarımçıq və qeyri-ardıcıl idi. Qafqazdakı rus qoşunlarının komandanı general İ.F.Paşkeviçin 15 may 1828-ci il tarixli sərəncamı ilə xanlıqlar dövründə torpaq və kəndlər üzərində sahiblik hüququ haqqında verilmiş sənədlərin toplanmasına başlandı. Lakin vilayət idarəsində toplanmış bu sənədlər əsasında yerli bəylərin torpaq sahibliyi hüququnu təsdiq edən hər hansı bir qərar qəbul edilmədi. Bəylərə keçmiş Naxçıvan və İrəvan xanları dövründə bağışlanmış torpaq və kəndlər onların irsi mülkiyyəti deyil, xəzinənin əmlakı elan edildi, bəylər isə həmin kəndlərin «müvəqqəti icarəçisi» hüququ aldılar (11, VII, 492,494).

XIX əsrin 20-ci illərində çarizmin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan feodallarının çoxu əsas gəlir mənbəyi olan kəndlərdən və torpaq sahibliyi hüququndan məhrum edildi. Çarizmə sədaqətli xidmət əvəzində bəylərin bir qisminə dövlət təqaüdləri ayrıldı (10, 128), bir qisminə isə kəndlər üzərində idarəçilik hüququ, yəni kəndin gəlirinin bir hissəsini mənimsəmək ixtiyarı verildi (1, 84,88).

Yerli bəy və ağaların torpaq hüququnun nizamlanması sahəsində növbəti addım çar I Nikolayın 1830-cu il iyulun 13-də imzaladığı qanun (əlahəzrət buyruğu) oldu. Bu sənəddə əmr edilirdi ki, «Xəyanət, eləcə də Rusiya hökumətinə qarşı bədxahlıq üstündə və siyasi mülahizələrə görə bu ölkədən Sibirə və ya ba□qa yerlərə məhkəməsiz sürgün edilənlərin hamısı əvvəlki yaşayış yerlərinə qaytarılsınlar və ... onların müşadirə edilmiş malikanələri indi olduqları vəziyyətdə ... onlara qaytarılsın, onlara bu malikanələrdən ... istifadə etmək icazəsi verilsin» (4, 301). Əlahəzrət buyruğunda xaricə qaçanların, hökumətə xəyanətdə ittiham edilərək edam olunan və ya sürgündə ölən şəxslərin xəzinəyə keçmiş malikanələrinin də onların ailələrinə geri qaytarılmasına icazə verilirdi (4, 301).

Bundan ümidlənən bəylər və digər əsilzadələr, onların varisləri müsadirə edilmiş torpaq mülklərinin geri qaytarılması üçün hakimiyyət nümayəndələrinə bir-birinin ardınca ərizə ilə müraciət etməyə başladılar. 1832-ci ilin sonuna kimi 264 nəfər bəy və ya onun varisi Müsəlman əyalətləri rəisliyinə ərizə göndərmişdi. Lakin Qafqazın baş hakimi 1834-cü ilin sonuna kimi yalnız 86 nəfərin müsadirə edilmiş torpağını və digər əmlakını özlərinə qaytarmağa icazə vermişdi (1, 117-118). Keçmiş Şirvan hakimi Mustafa xan 1831-ci ilin oktyabr ayında İranda geri qayıtdıqda, hökumətin qərarı ilə Yeddibulaq kəndində (Kür və Araz ayları arasında) yerləşdirildi, lakin əmlakı özünə qaytarılmadı (19, 67)

Ümumiyyətlə, XIX əsrin 40-cı illərinin ortalarına qədərki dövrdə çar hakimiyyəti nümayəndələri Azərbaycan feodallarının torpaq sahibliyi hüququnu tam həcmdə bərpa etməyə tələsmir, əksinə müxtəlif vasitələrlə xüsusi torpaqları xəzinənin ixtiyarına keçirməyə çalışırdılar. Bu istiqamətdə növbəti addım Qafqazın baş hakiminin 1841-ci il aprelin

25-də verdiyi qərarla Qazax, Şəmşəddil və Borçalı bölgələrində ağaların, 1841-ci il mayın 28-də verdiyi qərarla Xəzər vilayəti bəylərinin tiyul torpaqlarının müsadirəsinə başlanması, özlərinin də kənd idarəçiliyindən uzaqlaşdırılması oldu (4, 310; 3, 663). Lakin bu qərarların icrasının yerlərdə böyük narazılıq doğurması, yerli feodal zümrəsinin çarizm əleyhinə fəal mübarizəyə başlaması çar hakimiyyətini geri çəkilməyə, tiyul torpaqlarının müsadirəsini dayandırmağa məcbur etdi. Çar I Nikolay yeni təyin etdiyi Qafqaz canişini M.S.Vorontsova təxirəsalınmaz bir vəzifə kimi tapşırdı ki, Cənubi Qafqazın müsəlman bölgələrində yaşayan yüksək zümrənin – ali müsəlman silkinin torpaq hüququnu, ümumiyyətlə aqrar məsələni nizama salsın.

Qafqaz canişini knyaz M.S.Vorontsovun başçılığı altında yaradılan xüsusi komissiya ali müsəlman silkinin hüquqlarını nizama salmaq üçün zəruri olan tədbirlərin layihəsini hazırlayıb Peterburqa göndərdi. Çarın 1846-cı il dekabrın 6-da imzaladığı reskriptlə bu məsələnin həlli qanun qüvvəsi aldı. Reskriptin 1-ci maddəsində Cənubi Qafqazın xan, bəy, ağa və ali müsəlman silkindən olan digər şəxslərin və «... müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi dövründə onların nəsillərinin sahib olduqları ... bütün torpaqlar onların irsi mülkiyyəti kimi» təsdiq olunurdu. Reskriptin 2-ci və 3-cü maddələrinə görə 1840-cı ildən sonra torpaq sahibkarlarından inzibati qaydada müsadirə edilmiş torpaqlar özlərinə qaytarıldı və onlrın mülkiyyəti kimi təsdiq edildi (4, 310-311).

6 dekabr 1846-cı il tarixli reskriptin verilməsi ilə ali müsəlman silki Rusiya zadəganları ilə torpaq sahibliyi baxımından eyni hüquqlara malik oldu. Bu da çarizmin Azərbaycanın feodal zümrəsi ilə ittifaqının yaradılmasında önəmli addım oldu.

Çar hakimiyyəti bəy və ağaların torpaq sahibliyi hüququnu nizama salmaqla yanaşı, əsas vergi ödəyiciləri olan kəndlilərin torpaqla təminatı məsələsini də nizama salmağa çalışırdı. Çinki XIX əsrin ortalarında Azərbaycan əhalisinin 90 fazindən çoxu kəndli ailəsi idi. Kəndlilərin $^2/_3$ hissəsindən çoxu xəzinənin ixtiyarına keçmiş torpaqlarda yaşayırdı və dövlət kəndlisi adlanırdı (2, IV, 83). Dövlət kəndliləri camaat halında yaşayır və pay torpaqlarını becərir, məhsulun $^1/_{10}$-i qədər malcəhət vergisi ödəyirdilər. XIX əsrin 40-cı illərində dövlət kəndlilərinin hər bir ailə başçısına orta hesabla 3-3,5 desyatin torpaq payı düşürdü. Lakin kəndlilərin bir qisminin ümumiyyətlə torpaq payı yox idi. Rəncbər adlanan belə kəndlilər Şəki və Şirvan bölgələrində əsasən ipəkçilik təsərrüfatlarında, Lənkəran qəzasında isə çəltik becərilməsində çalışırdılar (5, 121).

XIX əsrin ortalarında kənd əhalisinin qalan hissəsi sahibkarlara məxsus torpaqlarda yaşayırdı. Bu kateqoriyadan olan kəndlilərin pay torpağı ilə təminatı daha ağır vəziyyətdə idi. Bəhs olunan dövrdə sahibkar kəndlilərinə Şirvan bölgəsində orta hesabla 3,5 desyatin, Şəkidə 2 desyatin, Quba qəzasında isə cəmisi 1,25 desyatin yararlı torpaq sahəsi düşürdü (14, 47).

Çar hakimiyyətinin XIX srin birinci yarısında Şimali Azərbaycanın əkinə yararlı torpaqlarına rus,erməni və almanları kütləvi surətdə köçürüb yerləşdirməsi yerli kəndli ailələrinin torpaqla təminatını daha da pisləşdirdi. Təkcə XIX əsrin 30-cu illərinə kimi İrəvan, Naxçıvan və Qarabağ bölgələrinə İrandan və Osmanlı dövlətindən köçürülən erməni ailələrinə 200 min desyatin yararlı torpaq verilmişdi (2, IV, 49).

Bütün bunlar xalq içərisində haqlı narazılıq doğurudu. Ona görə də, XIX əsrin 40-cı illərinin ortalarında kəndlilərin torpaqla təmin edilməsi istiqamətində müəyyən addımlar atıldı. 1947-ci il aprelin 20-də Şimali Azərbaycanda bəy torpaqlarında sakin olan kəndlilər üçün, həmin il dekabrın 28-də isə Qazax, Borçalı və Şəmhəddil nahiyyələrində ağa torpaqlarında yaşayan kəndlilər üçün əsasnamələr verildi. Kəndli əsasnamələrinə görə, bəy və ağaların tokpağında yaşayan və 15 yaşına çatmış hər bir kişiyə 5 desyatin yararlı torpaq payı verilməli idi (8, 19). Sahibkar kəndliləri bəy və ağa torpaqlarından istifadə əvə-

zində məhsulun $^{1}/_{10}$ hissəsini malcəhət kimi ödəməli, həmçinin hər ailədən bir nəfər öz iş heyvanı ilə il ərzində 18 gün sahibkar təsərrüfatında təmənnasız olaraq çalışmalı idi.

Kəndli əsasnamələrində irəli sürülmüş və 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndliyə 5 desyatin yararlı torpaq verilməsini təmin edən zəruri addımlar hakimiyyət orqanları tərəfindən atılmadı. Bunun nəticəsi idi ki, 1870-ci il mayın 14-də təsdiq edilmiş «Əsasnamə»də yenidən bu müddəa təkrarlanmışdı. Həm də 1870-ci il «Əsasnamə»sində qeyd edilirdi ki, sahibkarın sərəncamında yararlı torpağın $^{1}/_{3}$ hissəsindən azı qaldığı halda, kəndliyə 5 desyatindən artıq qalan torpaq kəsilib götürülürdü (4, 315). İslahata görə: «Kəndlilər öz pay torpaqlarını ya bütövlükdə, ya onun bir hissəsini, sahibkarla qarşılıqlı razılıq əsasında, barışıq münsifinin müəyyən etdiyi qaydada hər bir zaman və heç bir məhdudiyyət qoyulmadan» ala bilərdilər (4, 320-321).

Rusiya hökuməti mərkəzi rus quberniyalarının kəndlilərinə pay torpağını satın almaq üçün borc pul verdiyi halda, Şimali Azərbaycan kəndlilərinə belə bir yardım göstərməyi nəzərdə tutmurdu. Həm də Azərbaycanda torpağın qiyməti Mərkəzi Rusiyadakı qiymətlərdən çox yüksək idi. Belə ki, Bakı quberniyasında 1 desyatin torpağın qiyməti Minsk quberniyasına nisbətən 25 dəfə, Həştərxan quberniyasına nisbətən 20 dəfə baha idi. (2, IV, 185)

XIX əsrin ortalarında çarizm suvarma suyundan istifadəni tənzimləmək üçün də tədbirlər görməyə başladı. 1847-ci il aprelin 12-də Qafqaz canişini qraf M.S.Vorontsov tərəfindən təsdiq edilmiş qanuna görə, Cənubi Qafqazda suvarma suyundan istifadəyə ümumi nəzarət qəza rəislərinə, bu işin bilavasitə icrası isə miraba həvalə edilirdi (15, II, 96).

XIX əsrin ortalarında Şimali Azərbaycanda əkinə yararlı torpağın ümumi həcmi 3 milyon desyatın idi ki, onun da 2 milyon desyatindən artıq hissəsində süni suvarma vacib şərt idi. Kür və Araz çayları boyundakı düzənliklərdə isə ümumiyyətlə süni suvarma olmadan hər hansı məhsulun becərilməsi, demək olar ki, mümkün deyildi. Ona görə də, çar hökuməti nümayəndələri Cənubi Qafqazda suvarma suyundan istifadəni tənzimləmək üçün XIX əsrin sonunda növbəti addım atdı.

1890-cı il dekabrın 3-də Cənubi Qafqazda suvarma suyu üzərində sahiblik və sudan istifadə qaydalarını nizama salmaq üçün «Sudan istifadə haqqında əsasnamə» qəbul edildi. Bütün suvarma təsərrüfatına rəhbərlik üçün Qafqaz su müfəttişliyi idarəsi yaradıldı. Bununla ayrı-ayrı bölgələrdə o zamana qədər tətbiq edilən sudan istifadə üzrə müxtəlif qaydalar nizama salındı, bütün region üçün sudan istifadənin vahid qaydaları müəyyən edildi (2, IV, 270)

Dövlət torpaqlarında əsrlərdən bəri yaşayan kəndlilərin torpaq sahibliyi hüququ və aztorpaqlı ailələrin yararlı torpaq sahələri ilə təmin edilməsi sahəsində çarizm açıq-aşkar müstəmləkəçi siyasət yeridirdi. Çar hakimiyyəti nümayəndələrində belə bir düşüncə hakim idi ki, rus dövlətinə – xəzinəyə məxsus torpaqlar yalnız Mərkəzi Rusiyadan köçürülən rus əhalisinə verilməlidir. 1898-ci ilin başlanğıcında Rusiya Əkinçilik və Dövlət Əmlakı Naziri Yermolov Qafqazın dövlət kəndlilərinin pay torpaqlarının qaydaya salınması məsələsinin müzakirə olunduğu toplantıda qeyd etmişdi ki, Qafqazda rus əhalisinin məskunlaşdırılması çox vacib bir məsələdəir və «bu vəzifə yerli əhalinin torpaqla təmin olunması məsələsindən irəlidə olmalıdır» (12, 18-23; 2, V, 57).

Bunula bərabər, Rusiya hakim dairələri çox yaxşı başa düşürdülər ki, dövlət kəndlilərinin torpaqla təmin olunması məsələsinin qaydaya salınması xəzinəyə vaxtında və davamlı vergi ödənilməsi üçün çox vacib şərtdir. Ona görə də, çar II Nikolay 1900-cü il mayın 1-də Cənubi Qafqaz quberniyalarında dövlət kəndlilərinin torpaqla təmin edilməsinin mühüm əsasları haqqında sənədi təsdiq etdi. Bu sənədə əsasən, dövlət kəndliləri pay torpaqlarından həyatyanı sahə kimi istifadə etmək və onu nəsildən-nəsilə ötürmək hüququna malik oldu. Əvəzində hər evdən (ailədən) toplanan verginin həsmi iki dəfədən çox artırıldı

(2, V, 57). Nəticədə dövlət kəndliləri içərisində təbəqələşmə sürətləndi, torpaq sahələrinin əhəmiyyətli bir hissəsinin varlı kəndlilərin – qolçomaqların əlində cəmləşməsi baş verdi.

Sahibkar kəndliləri içərisində bu proses çarın 1912-ci il dekabrın 20-də imzaladığı aqrar qanunun tətbiqi nəticəsində intensivləşdi. Bu qanuna görə, sahibkar kəndliləri öz pay torpaqlarını məcburi surətdə satın almalı oldular. Çar hökuməti həmin torpaqların pulunu mülkədarlara ödədi, kəndlilər isə həmin vəsaiti 20 il ərzində faizi ilə birlikdə dövlət xəzinəsinə ödəməli idilər. Bu qanun Dağıstan vilayətinə və Zaqatala dairəsinə 1913-cü il iyulun 7-də şamil edildi.

Çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi aqrar qanunlar, məhdud cəhətlərinə və müstəmləkəçi xarakterinə baxmayaraq, kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafına müsbət təsir göstərdi.

## ƏDƏBİYYAT

Azərbaycan dilində

1.Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı: «Adiloğlu» nəşriyyatı, 2005, 232 s.
2.Azərbaycan tarixi 7 clddə, c. IV, Bakı: «Elm», 2000, 508 s., c. V, Bakı: Elm, 2001, 672 s.
3.Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. (S.Əliyarlının redaktəsi ilə). Bakı: «Azərbaycan» nəşriyyatı, 1996, 872 s.
4.Azərbaycan tarixi üzrə qaynaqlar (S.S.Əliyarov və Y.M. Mahmudovun redaktəsi ilə). Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
5.Gülmalıyev M.M. XVIII əsrin son rübü-XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı: «Elm», 1989, 280 s.
6.Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövürdə). Bakı: «Kür» nəşriyyatı, 2002, 266 s.
7.Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. – Qarabağnamələr. Bakı: «Yazıçı», 1989, s. 104-148
8.Niftəliyev R.Y. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. Bakı: ADPU nəşriyyatı, 2006, 138 s.
9.Talıbzadə İ.A. XIX-XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı: «Elm», 1980, 216 s.
10.Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: «Elm», 2004, 180 s.
11.Акты собранные Кавказской Археографической Комиссией, т. II-XII, Тифлис, 1866-1904.
12.Антелева И.Г. Реформы поземельного устройства государственных крестьян Закавказского края в конце XIX в. Документы и материалы. Сухими: изд-во Алашара, 1952, 365 с.
13.Гаджиева З.А. Об административном устройстве и религиозно- этническом составе Гарабагского ханства – Гарабаг: Кюрекчайский договор – 200, Баку: "Тахсил", 2005, с 102-113
14.Гасанов И.М. Частновладельческое крестьянство в Азербайджане в первой половине XIX века, Баку: Изд-во АН Азерб. ССР, 1957, 146 с.
15.Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х годах XIX в., ч. 1-2. М.-Л., 1936-1937
16.Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Л.: Изд-во АН СССР, 1949, 548 с.
17.Покровский М.Н. Дипломатия и войны России в XIX столетий М.: "Красная новь", 1923, 392 с.
18.Полное собрание законов Российской империи. Собрание первое. СПб, 1830
19.Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX-нач. XX вв). Баку: Изд-во АН Азерб. ССР, 1955, 295 с.
20.Сумбатзаде А.С. Кубинское восстание 1837 г. Баку: Изд-во АН Азерб. ССР, 1961, 136 с.

**ПАШАЕВ Г.М.**
*Аспирант БДУ*

## ПРЕТВОРЕНИЕ В ЖИЗНЬ РОССИЙСКИХ АГРАРНЫХ ЗАКОНОВ И РАСПОРЯЖЕНИЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (XIX – начале XX вв.)

В ходе присоединения Северного Азербайджана к Российской империи, более $^{2}/_{3}$ части пригодных земель перешла в собственность казны. А оставшаяся у местных феодалов часть земель в начале 40-х гадов XIX в. по распоряжению правительства были конфискованы. Только массовые выступления населения вынудили царизма утвердить права высшего мусульманского сословия на владении землей и передачи ее по наследству.

Аграрное законодательство России в 70-е годы XIX в. и в начале XX в. частично устранили феодальную зависимость крестьян и урегулировали их права на земли и воды. Эти акты и распоряжения способствовали развитию капитализма в сельском хозяйстве края.

**PASHAYEV H.M.**
*Post-graduate student of Baku State University*

## APPLICATION OF THE RUSSIAN AGRARIAN LAWS AND ORDERS IN THE NORTHERN AZERBAIJAN
## (XIX - beginning XX centuries)

Summary

In the process of combining of Northern Azerbaijan into Russian empire, more than 2/3 parts of the fitting land had right power of treasure. And the rest land of the property of the local feudals began to be confiscated at the beginning of the 40 reptiles of XIX century. But only the mass protest of population made tsarism to put in order the right of land property of supreme muslim strata.

The agrarian laws, realized by Russia in the 70th years of XIX century and at the beginning of XX century put partly an end to the feudal dependence of peasants and put in order their rights on land and water as well. These laws and orders made it possible for the development of capitalism in the agriculture of the country.

***Rəyçilər: prof.T.T.Vəliyev, t.e.d.L.L.Həsənova.***
***BDU-nun Tarix fakültəsi «Slavyan ölkələri tarixi» kafedrasının 16 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***